Ədəbiyyat qəzeti

31 iyul 2021-ci il 29

# Nəcibə İLKİN - 60



Hörmətli Nəcibə xanım!

Sizi - tanınmış şair-publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz Moskva Texnologiya Universitetinin filologiya (dil-ədəbiyyat) fakültəsini bitirdikdən sonra bir müddət ixtisasınız üzrə işləmisiniz. Ədəbi yaradıcılığa 1978-ci ildən başlamısınız. İlk şeiriniz 1979-cu ildə işıq üzü görüb. Sonralar respublikanın əksər mətbuat orqanlarında şeir və məqalələriniz dərc olunub. Roman, povest və hekayələrinizin toplandığı "Bir ömür uduzdum", "Qəlbimdə dil açan dünyam", "İllərin o tayı gözləyir məni", "Son görüş, son zəng, son təbəssüm", "Qartal zirvədə qaldı", "Könlüm nağıl istəyir", "Sözün ölçüsü və çəkisi", "Bir şəhidin gecikmiş ömür yolu", "Yarımçıq toy", "Gədəbəy Qartalı", "İki vətən qızı" kitablarının müəllifisiniz. "Bir yorğun yolçuyam" adlı şeirlər kitabınız Təbrizdə işıq üzü görüb.

Siz 400-ə yaxın kitabın redaktoru və ön söz müəllifisiniz. Bu xidmətlərinizə görə Azərbaycan KİVİHİ-nin bir neçə fəxri diplomuna layiq görülmüsünüz. 2006-cı ildən təsis etdiyiniz "Azad qələm" qəzeti və "Ali Ziya" jurnalının baş redaktorusunuz. Dünya Türkmən Ədəbiyyatı və Yazarlar Birliyinin, İLESAM-ın üzvüsünüz. 2019-cu ildə Türkiyədə nəşr olunan "Elbistan" dərgisinin redaksiyası tərəfindən "Türk dünyası könül elçisi ödülü"nə layiq görülmüsünüz. 2016-cı ildə Avropa Nəşr-Mətbu Evinin qızıl medalı ilə təltif olunmaqla sizə "İlin ən yaxşı vətənpərvər şairi" mükafatı təqdim edilmişdir. 2020-ci ildə "Yeni Avaz" Yazıçılar və Tarixçilər Birliyinin və Əmir Teymur OBF-nin təsis etdiyi "Turan Birliyi" medalı ilə mükafatlandırılmısınız.

Hörmətli Nəcibə xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, can sağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**